# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **269/5** **25 noyabr 2015-ci il**

**Auditin statistik göstəricilər sisteminə dair məlumatları Auditorlar Palatasına təqdim etməyən auditor təşkilatları və sərbəst auditorlar barədə**

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının "Auditin statistik göstəricilər sisteminin tətbiqi" barədə 1.25-ci bəndinə uyğun olaraq, Analitik informasiya və təhlil şöbəsi (R.Cəfərli) tərəfindən hazırlanmış məruzəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2014-cü il 27 dekabr tarixli 259/3 saylı qərarı ilə təsdiq olunmuş "Auditin statistik göstəricilər sistemi"nə dair məlumatların təqdim edilməsinin zəruriliyi barədə dəfələrlə Palatanın məsul şəxsləri və əməkdaşları tərəfindən müraciət edilməsinə baxmayaraq, Auditorlar Palatasına "Auditin statistik göstəricilər sistemi"nə dair məlumatları təqdim etməyən aşağıdakı auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara ciddi xəbərdarlıq elan edilsin:

**Auditor təşkilatları:**

1. "BKR İŞIK" MMC (direktor – Elvin Əliyev)
2. "F.N.Audit Servis" MMC (direktor – Fuad Əliyev)
3. "Yusifov Audit" MMC (direktor – Naib Yusifov)

**Sərbəst auditorlar:**

1. Eminov Otello
2. Əliyev Elçin
3. Qurbanlı Ziya
4. Sadıqov Musa
5. Talıbov Tariyel

2. Bu qərarın 1-ci bəndində adları qeyd edilən auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorların şəxsi işlərində müvafiq qeydlər aparılsın;

3. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**